Nəsimi rayonu

2016-cı ilin sosial-iqtisadi yekunları

Əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş müasir Azərbaycan 2016-cı ildə möhtərəm Prezidentimiz cənab İlham Əliyevin müdrik siyasi fəaliyyəti nəticəsində inamla irəliləmiş və ölkə başçısının fəaliyyətinin ana xəttini təhlükəsizlik, ictimai-siyasi sabitlik, iqtisadiyyatda dayanıqlılıq, inkişaf, dövlətçilikdə xalq faktorunun üstün mövqeyi, balanslaşdırılmış xarici siyasət, bəşəriyyətin taleyində çoxaspektli dialoqun rolu, tolerantlıq fəlsəfəsi kimi aktual, xüsusi çəkiyə malik məsələlər təşkil etmiş və dövlətimizin və xalqımızın əmin-amanlığı, tərəqqisi təmin olunmuşdur.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sədrliyi ilə 10 yanvar 2017-ci il tarixdə Nazirlər Kabinetinin 2016-cı ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclası keçirilmişdir. Ölkə başçısı ötən ildə Azərbaycanda həyata keçirilmiş genişmiqyaslı işlərə, qazanılan uğur və nailiyyətlərə öz münasibətini bildirmiş, qarşıda duran vəzifələr müəyyənləşdirilmişdir.

Möhtərəm Prezident İlham Əliyevin Nazirlər Kabinetinin 2016-cı ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında çox haqlı olaraq qeyd etdiyi kimi, 2016-cı ili təhlil edərkən regionda və dünyada gedən proseslər nəzərə alınmalıdır və Azərbaycan 2016-cı ildə öz inamlı inkişafını davam etdirib: "Ölkəmizdə təhlükəsizlik tədbirləri təmin edilmişdir, Azərbaycan xalqı sülh, əmin-amanlıq şəraitində yaşamışdır və yaşayır. Ölkəmizdə sabitliyin mənbəyi xalqımızın iradəsidir, xalqımızın seçimidir. Bu gün ölkəmiz dünya miqyasında sabitliyi ilə seçilən ölkələrdən biridir. Əlbəttə ki, gördüyümüz bütün bu işləri dünya kontekstindən ayırmaq mümkün deyil. Dünyada və bölgədə gedən təhlükəli proseslərə fikir verərkən bir daha görürük ki, Azərbaycan öz yoluna sadiqdir, müstəqillik, inkişaf yolu ilə gedir və biz çalışmışıq və çalışacağıq bundan sonra da ölkəmizi, xalqımızı mümkün olan risklərdən qoruyaq, öz müstəqil yolumuzu təmin edək. Artıq tarix və ətrafda baş verən hadisələr göstərir ki, bizim seçdiyimiz yol yeganə düzgün yoldur. Bu, müstəqillik yoludur, sabitlik, inkişaf yoludur".

2016-cı ildə Azərbaycan iqtisadiyyatının yekunları əvvəlki illər kimi yüksək deyil. Bunun da əsas səbəbi dünya bazarlarında neftin qiymətinin bir neçə dəfə aşağı düşməsidir. Azərbaycan iqtisadiyyatı dünya iqtisadiyyatının bir parçasıdır. Dünyada isə iqtisadi böhran 2016-cı ildə də



davam edib. Belə bir şəraitdə neftin qiymətinin dünya bazarlarında üç dəfə ucuzlaşması nəticəsində bir çox ölkələr kimi Azərbaycanın da gəlirləri aşağı düşüb. Lakin ağır iqtisadi dövr olmasına baxmayaraq, Azərbaycan ötən il özünün iqtisadi dayanıqlılığını qoruyub saxlaya bilib. Ən əsası, ölkədə iqtisadi sabitlik təmin edilib. Ən mühümü isə ondan ibarətdir ki, yeni islahatlara başlamaqla iqtisadi azalmadan yeni inkişaf hədəflərinə doğru keçid təmin olunub. Nazirlər Kabinetinin iclasında Prezident İlham Əliyev bu məsələyə toxunaraq böhranlı vəziyyətdən çıxış yolunun tapıldığını bəyan edib.

İqtisadiyyatın inkişafı ilə bağlı 2016-cı ildə başlanan islahatlar doğrudan da düşünülmüş, çoxşaxəli və perspektivlidir. İl ərzində Prezident İlham Əliyevin fərman və sərəncamları ilə qeyri-neft sektorunun inkişafı ölkənin ixrac imkanlarının artırılması, xüsusən valyuta axınına yol açan sahələrə diqqətin göstərilməsi, bu məqsədlə sahibkarlığın inkişafı və sairə məsələlərlə bağlı kardinal dəyişikliklərin edilməsi istiqamətində mühüm addımlar atılıb. Bütün bunlar iqtisadi islahatların hüquqi tərəfini təmin edib və imkan verir ki, gələcəkdə qeyri-neft sektorunun hesabına Azərbaycan iqtisadiyyatı inkişaf etsin.

2016-cı ildə ölkə Prezidenti tərəfindən 30-dək fərman və sərəncamın imzalanması ümumilikdə 3,6 milyon nəfərə və ya ölkə əhalisinin 38 faizinə yönələn əməkhaqları və pensiyaların, təqaüd və müavinətlərin növbəti dəfə artırılması ilə nəticələnib.

2016-cı ilin vacib hadisələri olaraq "Cənub" qaz dəhlizi və "Şahdəniz-2" layihəsi ilə bağlı bütün addımların atıldığı, TANAR layihəsinin böyük hissəsini icra edildiyi, Şimal-Cənub nəqliyyat dəhlizinin yaradılması tədbirlərinin görüldüyü, idmançılarımızın RİO olimpiadasında tarixi nailiyyətə imza atdığı qeyd edilmiş, tarixi əhəmiyyət kəsb edən referendumun nəticələrini xalqımızın iradəsini əks etdirdiyi vurğulanmışdır.

"Multikulturalizm ili" çərçivəsində Bakıda keçirilən mötəbər tədbirlər Azərbaycanın regionda və dünyada önəmini təsdiqləmişdir.

2017-ci ilin vəzifələrini müəyyənləşdirərək ölkə başçısı makroiqtisadi sabitliyin təmin olunması, inflyasiyanın birrəqəmli olması, bank sektorunun sağlamlaşdırılması, sənaye parklarının yaradılması, kənd təsərrüfatının, o cümlədən əkinçilik və heyvandarlığın inkişafı - infrastrukturların yaradılması, hərbi potensialın gücləndirilməsi, ekoloji tədbirlərin görülməsi, ölkəyə turist axınının stimullaşdırılması, "ASAN xidmət"in coğrafiyasının və funksiyalarının genişləndirilməsi, Ələtdəki Bakı Beynəlxalq Dəniz Ticarət Limanının tikintisinin birinci mərhələsinin tam başa çatdırılmasını qeyd etmişdir.

O, "Ağ şəhər" layihəsinin uğurla icra olunduğunu, Mənzil İnşaatı Dövlət Agentliyinin işə başladığını, köhnəlmiş mənzil fondunun yenilənməsinə start verildiyini, Bakı şəhərində yeni abadlıq layihələrinin həyata keçirilməyini, 2 minə yaxın sosial mənzil inşa olunacağını bildirmişdir.

2017-ci ildə Bakının bir sıra beynəlxalq tədbirlərə ev sahibliyi edəcəyi, İslam Həmrəyliyi Oyunlarının keçiriləcəyi qeyd olunaraq möhtərəm Prezident 2017-ci ili Azərbaycanda "İslam Həmrəyliyi İli" elan edib.

Regionlarda bütün infrastrukturun yeniləşdirilməsi, istehsal müəssisələrinin, iş yerlərinin yaradılması, vüsət almış tikinti, quruculuq və abadlıq işləri ötən ildə Nəsimi rayonunda da uğurla davam etdirilmişdir. Paytaxtımızda əhalinin ən sıx yerləşdiyi rayonlardan biri olan Nəsimi rayonu ötən il uğurlara imza atıb. Rayonun görkəmi dəyişir, əhalinin normal yaşayış səviyyəsi təmin olunur, sosial problemlərinin həlli istiqamətində təqdirəlayiq tədbirlər görülür. Ötən ildə Nəsimi rayonunun iqtisadi və sosial həyatında baş verən dəyişikliklər bütün sahələrdə yüksəlişlə müşayiət olunub. Rayonda sosialyönümlü tədbirlərə geniş yer verilməsi sakinlərin həyat səviyyəsinin yaxşılaşdırılmasına xidmət edir. İnşa edilən yeni obyektlər həm də turizmin inkişafına böyük imkanlar yaradır.

2016-cı ilin əvvəlindən rayonda yerləşən bir sıra müxtəlif təyinatlı obyektlərin inşası, təmir-yenidənqurulması işləri müvəffəqiyyətlə davam etdirilmiş, həmin obyektlərin açılışında və tikinti işlərinin gedişatı ilə tanışlıq mərasimlərində ölkə başçısı şəxsən iştirak etmişdir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin və Heydər Əliyev Fondunun prezidenti, millət vəkili Mehriban xanım Əliyevanın Nəsimi rayonunda aparılan abadlıq və quruculuq işləri üzrə layihələrin icrası ilə bağlı tədbirlərdə şəxsən iştirakı rayonun həyatında əlamətdar hadisə kimi tarixi əhəmiyyət kəsb etmişdir.

2016-cı il aprel ayının 19-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Bakı Metropoliteninin yeni bənövşəyi xəttinin "Avtovağzal" və "Memar Əcəmi" stansiyalarının açılışında iştirak edib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva aprelin 20-də rayonun Səməd Vurğun və A.Bakıxanov küçələrinin kəsişməsindəki ərazidə yeni salınmış istirahət parkında yaradılan şəraitlə tanış olmuşlar.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabr ayının 7-də rayonun şəhid Abdulla Rəhimov adına 247 saylı tam orta məktəbinin əsaslı təmir və yenidənqurma işlərindən sonrakı vəziyyəti ilə tanış olub.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyeva və Fondun vitse-prezidenti Leyla Əliyeva oktyabrın 6-da rayon ərazisində yeni salınan "Qızılgül bağı" parkında yaradılan şəraitlə tanış olmuşlar.

2016-cı ilin yanvar-dekabr aylarında rayonun sosial, iqtisadi inkişafının makroiqtisadi göstəriciləri əvvəlki ilin müvafiq dövrünün göstəricilərini xeyli üstələmişdir. Belə ki, sənaye sahəsində 516094.6 min manatlıq məhsul istehsal edilmiş və xidmətlər göstərilmişdir ki, bu da əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 1.3% çoxdur.

Nəqliyyat sahəsində 2016-cı ilin yanvar-dekabr aylarında fəaliyyət göstərən müəssisələr tərəfindən ümumilikdə 348959.5 min manatlıq xidmətlər göstərilmişdir.

İnformasiya və rabitə müəssisələrində 2016-cı ilin yanvar-dekabr aylarında 113727.6 min manatlıq rabitə xidməti göstərilmişdir. Bu da əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 63.6% çoxdur.

Tikinti sektorunda 2016-cı ilin yanvar-dekabr aylarında iqtisadi və sosial sahələrin inkişafı üçün bütün maliyyə mənbələri hesabına 1640106.1 min manat məbləğində investisiya yönəldilmişdir ki, bu da keçən ilin müvafiq dövrünə nisbətən 50.9 faiz çox olmuşur. İstifadə edilmiş vəsaitin 1274698.5 min manatı tikinti-quraşdırma işlərinin yerinə yetirilməsinə xərclənmişdir ki, bu da keçən ilin müvafiq dövrünə nisbətən 33.1 faiz çox olmuşdur.

Ticarət şəbəkəsində 2016-cı ilin yanvar-dekabr aylarında rayonun pərakəndə ticarət müəssisələrində əhaliyə 823550.2 min manat məbləğində və ya əvvəlki ilin eyni dövrü ilə müqayisədə 108.1 faiz çox istehlak məhsulları satılmışdır.

Əmtəə dövriyyəsinin 99.8 faizi özəl sektorun müəssisələrinin payına düşmüşdür.

Həmin dövr ərzində xidmət müəssisələri tərəfindən əhaliyə 438689.0 min manatlıq pullu xidmətlər göstərilmişdir.

Rayonun iqtisadi və sosial sahələrində muzdla işləyənlərin orta aylıq əməkhaqqı 2015-ci ilin yanvar-noyabr ayları ilə müqayisədə 9.2 faiz artaraq 563.4 manata çatmışdır.

"Məşğulluq haqqında" Azərbaycan Respublikası Qanununun müddəalarının reallaşdırılması və sosial müdafiəyə ehtiyacı olanlara kvotalaşdırılmış iş yerləri yaratmaq və bununla da işsizlik probleminin mümkün qədər yüngülləşdirilməsi məqsədilə 29 dekabr 2015-ci il tarixində Nəsimi Rayon İcra Hakimiyyəti başçısının 225 saylı Sərəncamı ilə "2016-cı il üçün Ərazi Məşğulluq Proqramı" təsdiq edilmiş və Məşğulluq Mərkəzi öz fəaliyyətini bu proqram əsasında qurmuşdur.

"Ərazi Məşğulluq Proqramı"na əsasən 2016-cı il ərzində Məşğulluq Mərkəzinə 3000 nəfər qeyri-məşğul əhalinin iş axtarmaq məqsədilə müraciət edəcəyi proqnozlaşdırılmışdır. Hesabat dövrü ərzində isə 3733 nəfər Məşğulluq Mərkəzinə müraciət etmişdir. Bu dövr ərzində ilk dəfə müraciət edənlərin sayı 2266 nəfər olmuşdur.

Hesabat dövrü ərzində Məşğulluq Mərkəzi tərəfindən 41 nəfər qaçqın və məcburi köçkün münasib işlə təmin olunmuş, 4 nəfər qaçqın və məcburi köçkünə işsizliyə görə müavinət ödənilmiş, 6 nəfər isə peşə təlimi kurslarına cəlb edilmişdir.

2016-cı il ərzində Dövlət Sosial Müdafiə Fondunun Bakı şəhəri Nəsimi rayon şöbəsində 2016-cı il ərzində qeydiyyatda olan əmək pensiyaçılarının sayı 24072 nəfər (5166 nəfəri işləyən, 18906 nəfəri isə işləməyən) təşkil edir. Bunlardan yaşa görə əmək pensiyaçıları 16791 nəfər, əlilliyə görə əmək pensiyaçıları 5311 nəfər, ailə başçısını itirməyə görə əmək pensiyaçıları 1970 nəfər təşkil edir.

"Əmək pensiyasının sığorta hissəsinin indeksləşdirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 25 yanvar 2016-cı il tarixli 1721 nömrəli sərəncamına əsasən 1 yanvar 2016-cı il tarixdən əmək pensiyalarının sığorta hissəsi ölkə üzrə ötən 2015-ci ilin istehlak qiymətlərininin inflyasiya indeksi nəzərə alınmaqla artırılmışdır.

2016-cı il ərzində Nəsimi rayonu üzrə 1082 ailənin 3945 ailə üzvü sosial yardımla təmin olunmuşdur. Hər bir ailəyə düşən sosial yardımın orta aylıq məbləği 149.08 manat, hər bir ailə üzvünə düşən orta aylıq məbləğ isə 40.88 manat olmuşdur.

Keçən dövr ərzində sosial yardımın tətbiqində aztəminatlı qaçqın və məcburi köçkün ailələri də diqqətdən kənarda qalmamışdır. 2016-cı il ərzində 20 qaçqın və məcburi köçkün ailəsi sosial yardım ilə təmin olunmuşdur.

8 saylı Xəzinədarlıq İdarəsi tərəfindən 2016-cı ildə dövlət büdcəsinin Nəsimi rayonu üzrə yerli xərclərindən maliyyələşən büdcə təşkilatlarının xərclərini tənzimləmək üçün 5 milyon 256 min 269 manat vəsait proqnozlaşdırılmış, hesabat dövrü ərzində həmin vəsaitdən 5 milyon 032 min 349 manat, yəni 95.7% vəsait xərclənmişdir.

Nəsimi Rayon Mənzil Kommunal Təsərrüfatı Birliyi tərəfindən 2016-cı ildə rayon ərazisində abadlıq və yenidənqurma işləri yerinə yetirilmiş, hesabat ilinin 4-cü rübündə rayon icra hakimiyyətinin rəhbərliyi altında sakinlərin rahatlığının təmin olunması məqsədilə daha intensiv silsilə tədbirlər həyata keçirilmişdir.

Nəsimi Rayon Enerji Təchizatı və Satışı İdarəsi tərəfindən 97, 86, 88, 99, 100, 101, 111 saylı y/st-da kabel xətləri, transormatorlar cari təmir olunmuş və mühafizəsi yoxlanılmışdır, cərəyan transformatorları və digər avadanlıqlar dəyişdirilmişdir.

Nəsimi Rayon Sukanal İdarəsi tərəfindən 2016-cı il ərzində qeydiyyata alınmış 218155 nəfər əhaliyə, o cümlədən məcburi köçkünə xidmət göstərilmişdir. Abonentlərin ümumi sayı 71989 abonent təşkil edir, o cümlədən əhali sektoru üzrə 65589 abonent, qeyri-əhali sektoru üzrə 6400 abonentdir. Rayon ərazisində yerləşən yaşayış məntəqələrinin 75,6%-i, yəni 165000 nəfərdən çox əhali sutka ərzində fasiləsiz və keyfiyyətli su ilə təmin olunur. Rayon üzrə əhalinin su təchizatı 100%-dir. Rayon əhalisini su ilə təmin edən və rayonun hüdudları çərçivəsində istismar olunan magistral su kəmərlərinin və məhəlləxarici su xətlərinin ümumi uzunluğu 303.0 km-dən artıqdır.

Nəsimi Rayonu üzrə Gigiyena və Epidemiologiya Mərkəzinin 2016-cı il ərzində yoluxucu xəstəliklərin vəziyyəti 2015-ci ilin müvafiq dövrü ilə müqayisədə xeyli dərəcədə yaxşılaşmış, epidemiya, kütləvi xəstələnmə və eləcə də kütləvi zəhərlənmə halları baş verməmişdir.

Aprel ayında respublikamızda tibb elminin inkişafına mühüm töhfələr vermiş görkəmli oftalmoloq, Azərbaycan Respublikası Elmlər Akademiyasının həqiqi üzvü Zərifə xanım Əliyevanın anadan olmasının 93 illiyi Nəsimi rayonunda geniş qeyd olunmuşdur. Əlamətdar tarixlə bağlı rayonun orta məktəblərində görkəmli oftalmoloq Zərifə xanım Əliyevaya həsr olunmuş "Azərbaycan qadını", "Gözlərə işıq, nur bəxş edən insan" və "Ana - müqəddəslik zirvəsidir" mövzularında inşa yazı, divar qəzetləri, bədii qiraət müsabiqələri, rəsm əsərləri sərgisi, idman yarışları keçirilmiş, məktəblərin foyelərində Azərbaycan tibb elminin görkəmli şəxsiyyəti olan, akademik Zərifə xanım Əliyevaya həsr olunmuş guşələr yaradılmışdır.

Tədbirdə Nəsimi Rayon İcra Hakimiyyətinin başçısı Asif Əsgərov, millət vəkili Əhliman Əmiraslanov və Bakı Dövlət Universitetinin rektoru Abel Məhərrəmov görkəmli alim, akademik Zərifə Əliyevanın həyat və yaradıcılığından geniş söz açmışlar. Həmçinin Zərifə xanım Əliyevanın xatirəsinə həsr olunmuş "Nur dolu ömür" adlı film nümayiş etdirilmişdir.

Tədbirin rəsmi hissəsindən sonra yarışa start verilmiş, final yarışında I yeri İsmayıllı rayonunun komandası, II yeri Nizami rayonunun komandası, III yeri isə Bərdə rayonunun komandası qazanmışlar. Qaliblərə "Qələbəyə doğru" kuboku, diplomlar və qiymətli hədiyyələr verilmişdir. Tədbirdə respublikanın tanınmış alimləri və ziyalıları iştirak etmişdir.

Sentyabr ayının 6-da Nəsimi Rayon İcra Hakimiyyəti başçısı yanında Şuranın geniştərkibli iclasında rayonda keçən tədris ilinin yekunları və yeni təhsil ilinə hazırlığın vəziyyəti müzakirə olunmuşdur.

2015-2016-cı tədris ilində rayonun orta məktəblərini 1669 nəfər bitirmiş, onlardan 1500 nəfəri ali məktəblərə qəbul olunmaq üçün sənəd vermişdir. Abituriyentlərin 1125 nəfəri tələbə adını qazanmışdır. Qəbul imtahanlarında abituriyentlərdən 177 nəfəri 500-dən yuxarı, 77 nəfəri 600-dən, 25 nəfəri isə 650-dən çox bal toplamışdır. Məzunlarından 227 nəfər xarici ölkələrin müxtəlif ali məktəblərinə qəbul olunmuşlar. 2015-2016-ci təhsil ilinin yekununa görə Nəsimi rayonu üzrə 1 məzun qızıl medala, 3 məzun isə Prezident təqaüdünə layiq görülüb. 2015-2016-cı tədris ilində Elitar Gimnaziyadan 695 bal toplamış məzun Fatimə Abdinli, Texniki Humanitar Liseydən 695 bal toplamış Valeh Rəcəbov və 42 saylı tam orta məktəbdən 690 bal toplamış Aidə Qəhrəmanova Azərbaycan Respublikası Prezidentinin təqaüdünə layiq görülmüşdür.

2015-2016-cı tədris ilində məktəblərə qəbul imtahanları zamanı Texniki Humanitar Liseydən 28 nəfər, 54 saylı məktəbdən 18 nəfər, 19 saylı orta məktəbdən 16 nəfər, 5 saylı məktəbdən 12 nəfər, 14 saylı orta məktəb və Elitar Gimnaziyadan 10 nəfər 500-dən çox bal toplamışdır.

Sonda qəbul imtahanlarında yüksək nəticələr göstərmiş məzunlara rayon icra hakimiyyəti tərəfindən qiymətli hədiyyələr təqdim olunmuş, Qarabağ müharibəsi əlilləri, veteranları, şəhid və aztəminatlı ailələrdən olan 300-ə yaxın uşağa isə məktəbli forması hədiyyə olunmuşdur.

Ötən il ölkəmizin ictimai-siyasi

həyatında baş verən mühüm hadisələrdən biri ölkə başçısının Azərbaycan Respublikasının Konstitusiyasında dəyişikliklər və əlavələr edilməsi məqsədi ilə ümumxalq səsverməsi keçirilməsi haqqında sərəncamına uyğun olaraq sentyabr ayının 26-da keçirilmiş referendum olmuşdur. Səsvermə prosesi yüksək səviyyədə təşkil olunaraq referendum demokratik və şəffaf nəticə ilə tamamlandı. Bunu istər yerli, istərsə də xarici müşahidəçilər də təsdiqlədilər. Rayonda olan 97414 seçicidən 59654 nəfəri, yəni 61,2%-i səsvermədə iştirak etmişdir.

Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Sənədlərlə və vətəndaşların müraciətləri ilə iş şöbəsinin nəzarəti altında həyata keçirilən vahid elektron informasiya sisteminin tələblərinə uyğub olaraq rüb ərzində işlər davam etdirilmiş və şöbə tərəfindən verilən tapşırıq və tövsiyələrin icrası təmin edilmişdir.

Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Sənədlərlə və vətəndaşların müraciətləri ilə iş şöbəsinin müdri Süleyman İsmayılovun mərkəzi respublika qəzetlərində cari ilin 11-12 fevral tarixində dərc edilmiş "Azərbaycan Prezidenti vətəndaşların müraciətlərinə daim diqqət və qayğını prioritet məsələ hesab edir" başlığı ilə geniş məqaləsində vətəndaş müraciətlərinə baxılması sahəsində qarşıda duran vəzifələri, mövcud nöqsanların aradan qaldırılması istiqamətlərini müəyyənləşdirmişdir. RİH və yerli strukturların məsul əməkdaşları tərəfindən məqalədə qeyd olunan tövsiyələr və irəli gələn vəzifələrlə bağlı görüləcək işlərin icrası təmin olunmuşdur.

Rayon ərazisində ardıcıl abadlıq və quruculuq işlərinin aparılması küçə və məhəllədaxili yolların, kommunikasiya xətlərinin təmiri, heyətlərin abadlaşdırılması, əhalini narahat edən bir sıra məsələlər üzrə, xüsusilə kommunal məsələlər, o cümlədən enerji, qaz, su və kanalizasiya ilə bağlı müraciətlərin sayının əvvəki dövrlə müqayisədə 35,0 faiz azalmasına səbəb olmuşdur.

Nəsimi Rayon İcra Hakimiyyəti başçısının Aparatı üzrə sənədlər daimi fəaliyyət göstərən sənədlərin ekspertizası və arxiv işi üzrə ekspert komissiyası tərəfindən ekspertizadan keçirilmişdir. 2011-ci ilin daimi saxlanılan sənədləri seçilib qaydaya salınaraq mühafizə olunması üçün Azərbaycan Respublikası Milli Arxiv İdarəsinin Bakı Filialına təhvil verilmişdir.

Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamlarının, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərar və sərəncamlarının, mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının, rayon icra hakimiyyəti başçısı yanında Şuranın, hesabat yığıncaqlarında tənqidi qeydlərin icrasının vəziyyəti il ərzində nəzarətdə saxlanmış, irəli gələn vəzifələrin həlli istiqamətində zəruri tədbirlər görülməsi təmin edilmişdir. 2016-cı ilin yanvar və fevral ayında RİHB-nın 1 nömrəli, 2 nömrəli, 3 nömrəli Sahə İƏD nümayəndələrinin hesabat yığıncaqlarında, RİH başçısının ilin yekununa dair hesabat yığıncağında səslənmiş tənqidi qeydlər və təkliflərlə bağlı il ərzində müvafiq tədbirlər həyata keçirilmiş, abadlıq, təmir, qaz, elektrik enerjisi, su və kanalizasiya, istilik enerjisi təchizatının yaxşılaşdırılması, "Abad həyət"lərin salınması və qorunması üzrə məsələlərin əksəriyyəti tam, qalan hissəsi qismən həll edilərək növbəti ildə davam etdiriləcəkdir. 1 və 3 nömrəli Sahə İƏD nümayəndəlikləri üçün inzibati binanın tikintisi məsələsinin həlli torpaq sahəsinin məhdudluğu səbəbindən mümkün olmamışdır.

Rayon icra hakimiyyəti tərəfindən məhkəmə qərarlarının icrası daim diqqət mərkəzində saxlanılmış və qərarların icra olunmasının başa çatdırılması üçün müvafiq zəruri tədbirlər həyata keçirilmişdir.

2016-cı il ərzində mütəmadi olaraq rayon icra hakimiyyəti başçısı yanında Şuranın iclasları keçirilmiş, rayon icra hakimiyyətinin 2016-cı il üçün təsdiq olunmuş tədbilər planında nəzərdə tutulmuş məsələlər müzakirə olunmuşdur.

Ölkə başçısı öz çıxışlarında dəfələrlə vurğulamış və gündəlik fəaliyyəti ilə göstərir ki, hakimiyyətin xalqa qulluq etməkdən, onun rifah halının gündən-günə yaxşılaşması üçün çalışmaqdan vacib işi yoxdur. Nəsimi RİH bundan sonra da onun üzərinə düşən bütün vəzifələrin öhdəsindən layiqincə gəlməyə çalışacaq, rayonun bütün imkanlarını xalqımıza xidmət göstərməyə səfərbər edəcəkdir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sədrliyi ilə 10 yanvar 2017-ci il tarixdə Nazirlər Kabinetinin 2016-cı ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasındakı nitqindən irəli gələn vəzifələrin uğurla yerinə yetirilməsi üçün Nəsimi Rayon İcra Hakimiyyəti, yerli strukturlar, müəssisə və təşkilatlar tərəfindən məqsədyönlü tədbirlərin həyata keçirilməsi davam etdiriləcəkdir.

Nəsimi Rayon İcra Hakimiyyətinin illik hesabatı əsasında hazırladı:
Məhəmməd VƏLİYEV,
"Respublika".